# Qəbələ: sosial-iqtisadi inkişafa müasir yanaşma

## Bu ötən il böyük uğurların əldə olunmasına imkan yaratmışdır

*Fevralın 25-də Qəbələ rayonunda 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat iclası keçirilmişdir.*

*Geniş müzakirələrin aparıldığı tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrinin rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin təmsilçiləri iştirak etmişlər.*



Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.

Qəbələ Mədəniyyət Mərkəzində davam edən hesabat yığıncağında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev 2019-cu ildə sosial-iqtisadi sahədə görülən işlər barədə geniş məruzə etmişdir (məruzə qəzetin ötən nömrəsində dərc olunmuşdur).

Prezident Adminstrasiyası Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev toplantıda bu il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən müşavirədə ölkə başçısının çıxışından irəli gələn vəzifələr barədə məlumat vermişdir.

İclasda 10 saylı Ərazi Vergilər İdarəsinin rəisi Cavid Kəngərli, müalicə diaqnostika mərkəzi publik hüquqi şəxsin direktoru Ceyhun Əhmədov, təhsil şöbəsinin müdiri Arifə Bayramova və Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin müəllimi Yasəmən Qasımova çıxış edərək fəaliyyət göstərdikləri sahələrdə 2019-cu ildə əldə olunan uğurlardan, qarşıda duran vəzifələrdən söz açmışlar.



Tikanlı kənd sakini Dursun Bayramov yığıncaqda söz alaraq son illər Qəbələdə, o cümlədən ucqar sayılan Tikanlı kəndində həyata keçirilən nəhəng abadlıq-quruculuq işlərinə--yol və körpülərin tikintisinə görə kənd əhalisi adından Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Hesabat iclasında 2020-ci ildə qarşıda duran vəzifələrin icrasının təmin olunması ilə bağlı müvafiq qərar layihəsi qəbul olunmuş, yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət ünvanlanmışdır.

Sonda rayonun sosial-iqtisadi inkişafında fərqlənən bir qrup şəxsə RİH-nin Fəxri fərmanları təqdim olunmuşdur.

İclası Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

# Xocalı soyqırımının iyirmi səkkizinci ildönümü qeyd edilib





Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirilib.

Tədbir iştirakçıları əvvəlcə məktəblilərin Xocalı faciəsinə həsr etdikləri "Xocalı soyqırımı uşaqların gözü ilə" adlı sərgi ilə tanış olublar.

Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunan tədbiri RİH başçısının müavini Ətayə Osmanova açdıqdan sonra Xocalı soyqırımı qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bildirib ki, Azərbaycan xalqı Xocalı faciəsini heç vaxt unutmur və bu böyük faciəni, insanlığa və



bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayət–soyqırımı kimi dərin hüznlə yad edir.

RİH-nin başçısı qeyd edib ki, Prezident İlham Əliyev Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır.

Torpaqlarımızın düşmən tapdağından tezliklə azad olunacağını deyən rayon rəhbəri Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın müstəsna xidmətlərinin olduğunu, onun təşəbbüsü ilə bir çox ölkələrdə həyata keçirilən "Xocalıya Ədalət - Qarabağa Azadlıq!" beynəlxalq təbliğat kampaniyasının faciənin dünyada soyqırımı aktı kimi tanınmasında mühüm rol oynadığını vurğulayıb.



Sonra Xocalıdan olan məcburi köçkünlərdən Qiyas Əhmədov və Kamal Məmmədov çıxış edərək Qəbələdə onlara göstərilən isti münasibətə və dövlət qayğısına görə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə şəhər 3 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında Xocalı soyqırımına həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim olunub.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**